# Görkəmli oftalmoloq-alimin xatirəsi anılıb






**Yevlax Şəhər İcra Hakimiyyəti və Rayon Mərkəzi Xəstəxanasının birgə təşkilatçılığı ilə görkəmli oftalmoloq, Azərbaycanın Əməkdar elm xadimi, tibb elmləri doktoru, Azərbaycan Milli Elmlər Akademiyasının akademiki Zərifə Əziz qızı Əliyevanın anadan olmasının 99-cu ildönümünə həsr olunmuş tədbir keçirilmişdir.**

Tədbirin əvvəlində Zərifə xanım Əliyevanın həyat və yaradıcılığı haqqında hazırlanmış videoçarx nümayiş etdirildi. Tədbirdə çıxış edən Yevlax Şəhər İcra Hakimiyyətinin başçısı Anar Tağıyev bildirdi ki, dünya oftalmologiya elminin parlaq simalarından olan Azərbaycan alimi, tibb elmləri doktoru, akademik, şəfalı əlləri ilə minlərlə xəstənin gözlərindəki zülməti işığa çevirən Zərifə xanım tək Azərbaycanda deyil, dünya miqyasında da möhtəşəmliyi, bənzərsizliyi ilə tanınır.

Mərasimdə çıxış edən Milli Məclisin deputatı İlham Məmmədov, Yevlax Şəhər Xəstəxanası Publik Hüquqi Şəxsinin direktoru Fazil İsmayılov Zərifə xanım Əliyevanın mənəvi dünyası, oftalmologiya elminin inkişafındakı xidmətləri ilə yanaşı, ictimai-siyasi fəaliyyətindən də danışdılar. Qeyd edildi ki, Zərifə xanımın fitri istedada malik novator alim kimi yaşadığı dərin mənalı ömrü, keçdiyi şərəfli həyat yolu hər bir Azərbaycan vətəndaşı, hər bir alim və həkim üçün həyat və mənəviyyat dərsi, kamillik və müdriklik məktəbidir.

Sonda Yevlax Rayon Mədəniyyət Mərkəzinin əməkdaşları Zərifə xanım Əliyevanın əziz xatirəsinə həsr olunmuş şeir və musiqi nömrələri ifa etdilər.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

**Respublika.- 2022.- 30 aprel.- S. 14.**